## “Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği”nin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 668 nömrəli fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 1 iyul 2014-cü il
№ 214

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 1 iyul tarixli 214 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği[1]

| Sıra №-si | Nəzarət markası verilən nüsxənin növü | Ödənilən haqqın məbləği *(1 ədədin qiyməti, manatla)* |
|---|---|---|
| 1. | "A" - audiovizual əsər nüsxəsi | 0, 15 |
| 2. | "F" – fonoqram nüsxəsi | 0, 15 |
| 3. | "P" - kompyuter proqramı nüsxəsi | 0, 15 |
| 4. | "M" - məlumat toplusu nüsxəsi | 0, 15 |
| 5. | "K" - kitab nüsxəsi | 0, 15 |
| *6.* | *"DİNİ TƏYİNATLI" - dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarda), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materialları* | *0,02* |
| *7.* | *"DƏRMAN VASİTƏLƏRİ" - dərman vasitələri* | *0,01* |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 1 iyul 2015-ci il tarixli **251** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 11 iyul 2015-ci il, № 148; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 07, maddə 883**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 1 iyul 2015-ci il tarixli **251** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 11 iyul 2015-ci il, № 148; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 07, maddə 883)** ilə “Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği”nə yeni məzmunda 6-7-ci hissələr əlavə edilmişdir.